# Uşaq şəxsiyyətinin formalaşması və əmək tərbiyəsi - müasir təhsilin aktual problemi kimi

**Sevil Raqif qızı Cəfərova**
*ADPU-nun Ağcəbədi filialı*
**E-mail:** Jafarovasevil@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. M.İ. İlyasov,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** əmək, texnoloji tərəqqi, bacarıqlar, ətraf aləm
**Ключевые слова:** труд, технический прогресс, навыки, мир вокруг
**Key words:** labor, technical progress, skills, the world around

Müasir dövrdə təhsilin cəmiyyətin bütün sahələrində, o cümlədən, iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda, sürətli texnoloji tərəqqi bilik və bacarıqların müntəzəm yeniləşməsini tələb edir. Sürətli elmi-texniki tərəqqi daha yeni və cəmiyyətin artan təlabatına uyğun ixtisasa yiyələnməyi tələb edir. Daha yeni səriştəliliyin inkişafına və yiyələnməsinə təlabat günü-gündən artır. Əməyə düzgün münasibət, əmək adamlarına hörmət və məhəbbət tərbiyəsi uşaqlarda əməksevərlik, əmək adamlarının qədrini bilmək, əməyə xor baxmamaq, hər bir peşə adamının sənətinə hörmət bəsləmək və həyatın əmək üzərində qurulması haqqında həqiqəti dərk etmək kimi keyfiyyətlərin formalaşmasını nəzərdə tutur.

Ona görə də istər təhsil müəssisələrində, istərsə də ailədə əmək tərbiyəsi üzrə hər hansı fəaliyyət prosesində iştirak etmək əmək proseslərinin təşkilinə, əmək şəraitinə elə diqqət yetirmək lazımdır ki, uşaqlarda əməyə müsbət münasibətlər formalaşa bilsin, əmək prosesinə əks münasibət yaratmasın.

"Azərbaycan Respublikası təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunur ki, son 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştəliliyin vacibliyi önə çəkilir. Səriştə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə səmərəli və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir" (1).

Hələ kiçik yaşlarından uşaqlarda təkcə sadə əmək bacarıqlarının formalaşdırılması artıq məktəbəqədər təhsilin əsas tələbi ola bilməz. Müasir rəqabətəqabil, həyati bacarıqlara yiyələnməyə əsaslanan şəxsiyyətyönlü təhsildə uşaqların həm də həyati səriştəyə malik olmaları əsas şərt hesab olunur. Bu bir həqiqətdir ki, insan ətraf aləm haqqında bilikləri onlar üzərində müəyyən əməliyyatlar apararaq dərk edir. Beləliklə, o, təkcə ətraf aləmi dərk etmir, həm də öz yaşayışını və ya həyati tələbatlarını təmin etmək üçün müəyyən əmək bacarıqlarına yiyələnmiş olur. Çox maraqlıdır ki, min illər keçsə də, texnoloji biliklər yüksək səviyyədə olsa da, yenə də bu tendensiya aktuallığını itirməmişdir. Ona görə də hələ kiçik yaşlarından uşaqlarda əmək bacarıqlarının formalaşdırılması məktəbəqədər tərbiyənin mühüm problemi olaraq qalır.

Belə ki, məktəbəqədər yaş dövründə uşaq təkcə onu əhatə edən aləm haqqında biliklər əldə etmir, həm də bu biliklərin tətbiqi qaydalarını da mənimsəmiş olurlar. Bunu da müəyyən mənada əmək hesab etmək olar. Lakin bu o demək deyildir ki, uşaq nə isə düzəldirsə və ya

müəyyən bir tapşırığı yerinə yetirmək üçün müəyyən məmulatı əldə edirsə, o, əməklə məşğuldur. Əslində uşağı əməyə hazırlamaq lazımdır. Bu hazırlıqda birinci onları psixoloji cəhətdən nəzərə alınmalıdır.

Uşaqların əməyə psixoloji hazırlığı dedikdə peşələrə dair marağın formalaşdırılması, əmək prosesləri vərdişlərinin aşılanması, əmək bacarıqlarının müvəffəqiyyətlə mənimsənilməsi üçün şəraitin yaradılması nəzərdə tutulur. Əməyin psixoloji hazırlığı duyğu orqanları ilə dərketmə, psixomotorika, diqqət, təfəkkür, emosiya, iradə kimi psixi proseslərin inkişaf və təkmilləşməsini tələb edir.

Məktəbəqədər yaşlı uşaqlar hələ məktəbəqədər müəssisədə təhsil almamışdan əvvəl əməklə, peşə ilə tanışlığı ailədə başlayır. Belə ki, uşaqlar ailədə ata-ananın və ailənin digər yaşlı üzvlərinin əməyi ilə tanış olur, ev işlərində bilavasitə iştirak edir, necə deyərlər, valideynlərə kömək edirlər.

Kiçik yaşlı uşaqlar çox vaxt ailədə əmək peşə və s. haqqında böyüklərin söhbətlərini eşidir, onların peşələri haqqında müəyyən məlumata yiyələnirlər. Bunlar uşaqlarda ilk əmək vərdişlərinin və peşələrlə tanışlığın yaranmasına da zəmin yaratmış olur.

**Məqalənin aktuallığı.** Kiçik yaşlı uşaqların həyati bacarıqlara yiyələnməsində əməyin rolunu ön plana çəkmək və əsaslandırmaq məqalənin aktuallığını şərtləndirən məsələdir.

**Məqalənin elmi yeniliyi.** İstənilən texnologiya əsrində yaşamağımızdan asılı olmayaraq əməyin həyati tələbat olması və onun kiçik yaşlı uşaqlara öyrədilməsi məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən əmək üzrə fənlərin tədrisində, valideynlərin bu sahədə maarifləndirilməsində, tərbiyəçi-müəllimlərin nəzəri hazırlığında geniş şəkildə istifadə edilə bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
2. İlyasov M.İ. Şagirdlərin peşə seçməyə hazırlanması: Monoqrafiya. Bakı: Elm, 2009.
3. Həsənova P.M. Məktəbəqədər müəssisələrdə əməyin təşkilinə müasir yanaşmalar: Metodik vəsait. Bakı: ADPU-nun nəşri, 2017.
4. B.Q.Neçayeva, R.S.Bure və b. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı, 1989.
5. Məktəbəqədər təhsilin kurikulumu. Bakı, 2012.

**С.Р. Джафарова**

## Формирование личности ребенка и трудовое воспитание - как актуальная проблема современного образования

### Резюме

Современная педагогическая мысль дает нам основания утверждать, что личностное воспитание может происходить только в комплексной среде. Другими словами, чтобы воспитать ребенка как личность, необходимо не только удовлетворить его материальные и духовные потребности, дать ему хорошее образование, но и познакомить с его трудовыми навыками, привить ему любовь к работе.

**S.R. Jafarova**

## Formation of a child's personality and labor education as an urgent problem of modern education


## Summary

Modern pedagogical thought gives us reason to assert that personal education can only take place in a complex environment. In other words, in order to raise a child as a person, it is necessary not only to satisfy his material and spiritual needs, to give him a good education, but also to acquaint him with his work skills, instil in him a love of work.


**Redaksiyaya daxil olub:** 10.11.2020